# İnsan Hüquqları Siyasəti

**Bizim yanaşmamız**

Biz öz işimizi BMT-nin (Birləşmiş Millətlər Təşkilatı) Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplərinə və BMT Qlobal Sazişinin on prinsipinə uyğun olaraq aparacağıq. Biz İnsan Hüquqlarına dair Beynəlxalq Bil və İşdə əsas prinsiplər və hüquqlar üzrə Beynəlxalq Əmək Təşkilatının Bəyannaməsində qeyd edilənlər ilə yanaşı, beynəlxalq səviyyədə tanınan bütün insan hüquqlarına hörmət edirik. Buraya həmkarlar ittifaqlarının yaradılması və kollektiv danışıqların aparılması azadlığına dair insan hüququ və məcburi əmək, uşaq əməyi və məşğulluq və peşə ilə əlaqədar ayrıseçkiliyə yol verilməyən insan hüquqları daxildir, lakin bunlarla məhdudlaşmır. Biz həmçinin beynəlxalq humanitar hüququn müvafiq standartlarına hörmətlə yanaşırıq.

Bu siyasət işçi, podratçı, təchizatçı və tərəfdaşlarımıza, habelə iş fəaliyyətlərimizin təsirinə məruz qalan icmalara necə münasibət göstərməyimizə dair prinsipləri müəyyən edir. Digərlərinin insan hüquqlarının pozulmasına yol verməyəcək, fəaliyyətimizlə insan hüquqlarına yarada biləcəyimiz əks təsirləri müvafiq şəkildə həll etməyə çalışacağıq. Daha çox təsirə məruz qoymaq riskində olduğumnuz insan hüquqlarına və daha çox təsirə məruz qalacaq həssas əhali qrupuna, o cümlədən, qadınlar, uşaqlar, miqrant işçilər və yerli əhaliyə qarşı xüsusilə diqqətli olacağıq.

Təcrübələrimizi inkişaf etdirdikcə fəaliyyətimizin də inkişaf edəcəyini nəzərə alaraq, insan hüquqları üzrə səylərimizi daim inkişaf etdirməyə çalışacağıq.

**Biz öhdəlik daşıyırıq**

Biznes və İnsan Hüquqları üzrə BMT-nin Rəhbər Prinsiplərinə müvafiq olaraq bütün beynəlxalq səviyyədə tanınan insan hüquqlarına hörmətlə yanaşmaq və xüsusilə;

- Bizimlə birgə işləyənlər və fəaliyyətlərimizin təsirinə məruz qalmış şəxslərə ədalətli və ayrıseçkilik etmədən davranmaq
- Təhlükəsiz, sağlam və güvənli iş şəraiti təmin etmək
- Dəyər zəncirimizdə insan alverinin bütün növləri, məcburi əmək və uşaq əməyinin qeyri-qanuni növlərinə qarşı çıxmaq
- Mülkiyyət hüququ, yaşamaq və torpaq və təbii sərvətlərdən istifadə hüququ, təhlükəsizlik, sağlamlıq, su və kanalizasiya üzrə hüquqları da daxil olmaqla, lakin bunlarla məhdudlaşmayaraq, fəaliyyətimizin təsirinə məruz qalmış icmalardakı şəxslərin insan hüquqlarına hörmətlə yanaşmaq
- Fəaliyyətlərimizi Təhlükəsizlik və İnsan Hüquqları üzrə Könüllülük Prinsiplərinə sadiqliyimizə uyğun olaraq aparmaq

**Necə işləyirik**

- Biz bütün işçilərimiz və işə götürdüyümüz podratçıların bu siyasətə əməl etməsini tələb edirik və bu məqsədlə bacarıqların artırılması imkanları təqdim edəcəyik.
- Bizim üçün və ya bizimlə işlədikləri zaman təchizatçılar və işgüzar tərəfdaşlarımızdan bu siyasətin məqsəd və məramına riayət etməyi və bütün beynəlxalq səviyyədə tanınan insan hüquqlarına, o cümlədən yuxarıda xüsusilə istinad edilənlərə hörmət etmək öhdəliyimizi paylaşmalarını gözləyirik
- Biz bütün təchizatçılarımız və biznes tərəfdaşlarımızdan insan hüquqlarının daha çox təsirə məruz qalma təhlükəsi olanlara o cümlədən, təsirlərə daha həssas olan qadınlar, uşaqlar, miqrant işçilər və yerli əhali qruplarının insan hüquqlarına qarşı xüsusilə diqqətli olmasını gözləyirik
- Hasilat və enerji biznesi üzrə tərəfdaşlarımızın Təhlükəsizlik və İnsan Hüquqları üzrə Könüllülük Prinsiplərinə əməl etməsini gözləyirik

- Fəaliyyətlərimizdən irəli gələn insan hüquqlarına mümkün əks təsirlərə ol verməmək və ya onları aradan qaldırmaq məqsədilə işgüzar münasibətlərimizə təsir göstərməyə çalışacağıq
- Biz mütəmadi olaraq fəaliyyətimizdə insan hüquqları yoxlamaları aparmağa davam edəcəyik.
- Potensial və ya faktiki təsirə məruz qalmış yerli icmaların üzvləri ilə yanaşı, potensial və faktiki təsirə məruz qalanları da vaxtında və əsaslı şəkildə cəlb etməklə, fəaliyyətimiz və işgüzar münasibətlərimizin səbəb olduğu insan hüquqları ilə əlaqədar faktiki və potensial təsirləri qiymətləndirəcək və lazım olan yerlərdə effektiv qabaqlayıcı və azaltma tədbirləri icra etməyi hədəfləyəcəyik
- İnsan hüquqlarının pozulmasına səbəb olduğumuz təqdirdə, fərdlərə, işçilərə və yerli icmalara müvafiq qaydada belə bir pozuntunun aradan qaldırılmasını təmin etmək məqsədilə təchizatçılarımız və işgüzar tərəfdaşlarımızla birgə əməkdaşlıq edəcəyik. Bu məqsəd üçün biz həmçinin lazım olduqda şikayətlərə baxış üçün effektiv mexanizmlər təmin edəcəyik və ya onunla bağlı əməkdaşlıq edəcəyik
- Təsirə məruz qalmış maraqlı tərəflərin digər hüquqi vasitələrinə və ya hüquqi vasitələr üçün kanallarına çıxışını əngəlləməyəcəyik
- Müvafiq qanunlar və ya tələblər bu siyasəti dəstəkləməyi qadağan etdiyi təqdirdə, mümkün olan ən yüksək dərəcədə insan hüquqlarına hörmətin təmin olunması yollarını axtaracağıq
- Biz bu sahədə inkişafımızı və fəaliyyətimizi qiymətləndirəcək və bu barədə məlumat verəcəyik